# “Qara qan”la yazılmış çağdaş Qarabağnamə

**Tanınmış yazıçı-publisist, şərqşünas, Əməkdar jurnalist Fazil Güney Qarabağ münaqişəsinin ilk günlərindən qələmə aldığı, 30 il müdətində ərsəyə gətirdiyi, nəhayət, Vətən müharibəsində qazanılmış Zəfərin bədii-sənədli təəssüratı ilə tamamladığı min səhifəlik “Qara qan” roman-trilogiyasını bu günlərdə Azərbaycan Yazıçılar Birliyinin Natəvan klubunda təşkil olunan ədəbi-bədii mərasimdə oxuculara təqdim etdi.**




Dəyirmi masaya toplaşmış şərqşünas və jurnalist həmkarlarını, elmi-mədəni ictimaiyyət nümayəndələrini, eləcə də bir neçə canlı qəhrəmanını salamlayan “Qara qan” müəllifi onları Qarabağ münaqişəsinin əhatəli bədii-sənədli xronikası olan roman-epopeya üzərində gərgin və fasiləsiz yaradıcılıq fəaliyyəti, əsərin ideya-məzmun səciyyəsi, məqsəd və hədəfi barədə bilgiləndirdi.

Təqdimatın aparıcısı, tanınmış türkoloq, və diaspor qurucusu, Əməkdar elm xadimi, professor Tofiq Məlikli “Qara qan” kitabını fundamental bir nəşr nümunəsi kimi dəyərləndirdi. O, bu nəşrin Qarabağ həqiqətlərinin əhatəli və doğru-düzgün mənzərəsini yaradan, bu tarixi faciəni bu gün və gələcək üçün salnamələşdirən misilsiz bir mənbə, “Qara qan”la yazılmış çağdaş Qarabağnamə olduğunu söylədi. Alim sənədli epopeyanın düşmən qüvvələrlə mübarizədə mənəvi bir silah gücündə olduğunu vurğuladı.



AMEA Tarix İnstitutunun şöbə müdiri, professor, şair Şahin Fazil və sabiq diplomat, fəlsəfə doktoru Tofiq Abdullayev kitabın ilk oxucuları olaraq trilogiya haqqında təəssüratlarını bölüşdülər, müəlliflə çoxillik dostluq və yaradıcılıq əlaqələrindən danışdılar. Əməkdar incəsənət xadimi, yazıçı-dramaturq Firuz Mustafa isə bildirdi ki, Fazil Güneyin şərqşünas-diplomat, yazıçı-jurnalist kimi zəngin təcrübəsi və geniş dünyagörüşü ona belə bir epoxal əsər yaratmaqda yardımçı olub. Əsərin dəyəri və sanbalı da buradan qaynaqlanır, üstəlik, müəllifin müstəsna zəhmətkeşliyi ilə tamamlanır.

Ədəbiyyatşünas pofessor Asif Rüstəmli romanın ideya-sənətkarlıq xüsusiyyətlərini incələyərək, əsəri yurdsevər müəllifin çağdaş ədəbiyyatımıza və müasir Qarabağ tarixinə qiymətli töhfəsi olduğunu qeyd etdi. Azərbaycan Tibb Universitetinin professoru, Əməkdar həkim və əsərin qəhrəmanlarından biri olan Nadir İsmayılov bədii yaradıcılığın bəsitləşdiyi, kitablara marağın azaldığı bir dövrdə “Qara qan” romanının ədəbi aləmdə ciddi və maraqlı bir nəşr kimi qarşılanacağına əminliyini bildirdi.

Digər çıxış edənlər də romanın ədəbi-publisistik və tarixi önəmi barədə mülahizələrini açıqladılar. Müəllifi yaradıcılıq uğuruna görə səmimi təbrik edən natiqlər “Qara qan” kitabının ciddi və milli dəyər daşıyan əsərlərin layiq görüldüyü Dövlət mükafatına təqdim edilməsini təklif etdilər.

Sonda Fazil Güney çoxillik yaradıcılıq zəhmətinə yüksək qiymətə və xoş sözlərə görə təşəkkürünü bildirdi. “Qara qan” müəllifi oxucuların arzusu ilə Qarabağ mövzusunun zəfər dövrü barədə “Qızıl qan” adlı roman yazmağı düşündüyünü söylədi.

***Tahir RÜSTƏMLİ,***
***“Xalq qəzeti”***

Xalq qəzeti .- 2022.- 4 dekabr.- S.7.